**İSTİFADƏÇİ MÜQAVİLƏSİ**

Son dəfə yenilənib: 04.04.2023

## 1. Ümumi müddəalar

Siz “Azercell Telekom” MMC (bundan sonra “**Şirkət**”, “biz”, “bizi” və “bizim” kimi istinad ediləcəkdir) tərəfindən təmin edilən “Kabinetim” mobil tətbiqində ("**Tətbiq**") olan Maliyyə xidmətlərinin istifadəsinə cəhd göstərirsiniz. Hazırkı İstifadəçi Müqaviləsində (“**Müqavilə**”) “siz” və “sizin” dedikdə, sözügedən Tətbiqə daxil olan və ya ondan istifadə edən, Azərbaycan Respublikasının vətəndaşı olan istənilən fiziki şəxs nəzərdə tutulur.

Maliyyə xidmətlərindən istifadə etməzdən əvvəl, Müqaviləni diqqətlə oxumağınız xahiş olunur.

Maliyyə xidmətlərindən istifadə etməklə, siz hazırki Müqaviləni diqqətlə oxuduğunuzu və anladığınızı bildirir və buna dair üzərinizə öhdəliklər götürməniz barədə razılıq verirsiniz. Hazırkı Müqavilədə əks olunan öhdəlikləri üzərinizə götürmək istəməyədiyiniz təqdirdə, cari səhifəni tərk etməniz və Tətbiqin hər hansı gələcək istifadəsindən və ya Tətbiqə daxil olmaqdan çəkinməniz xahiş olunur. Tətbiqdən istifadə etməklə və ya Tətbiqə daxil olmaqla, siz hazırkı Müqaviləyə istinad etməklə daxil edilmiş və Tətbiqin istifadəsi ilə bağlı üçüncü tərəflərin Müqavilə şərtlərinə və istənilən digər əlavə qayda, təlimat və şərtlərinə riayət edəcəyinizə dair razılıq verirsiniz. Hazırkı Müqavilə heç bir üçüncü şəxsin iştirakı olmadan sizinlə Şirkət arasında bağlanır.

Bu Müqavilənin məqsədləri üçün Maliyyə xidmətlərinə Kart və kredit xidmətləri aid edilir.

## 2. Tətbiqin modifikasiyası

Sahib olduğunuz və ya nəzarət etdiyiniz cihaz və ya smartfon (“**Cihaz**”) serverə bağlandığı zaman Şirkət sizə qabaqcadan dəyişiklik haqqında məlumat verməklə, hazırkı Müqavilə şərtlərinə vaxtaşırı dəyişiklik edə və ya onu yeniləyə bilər. Hazırki Müqaviləyə edilmiş dəyişikliklərdən sonra sizin Tətbiqə daxil olmağınız və ya ondan istifadə etməyiniz sözügedən dəyişiklikləri razı olaraq qəbul etdiyiniz və bu dəyişikliklərə riayət etməyə dair öz üzərinizə öhdəlik götürdüyünüzü ifadə edir.

Tətbiqin versiyası yeni funksiyalara və xidmətlərə dəstəyin əlavə edilməsi məqsədilə vaxtaşırı yenilənə bilər. Tətbiqin yeni versiyası istifadəyə buraxıldıqda, sizə bu barədə məlumat veriləcək və Tətbiqin versiyasını yeniləmək istəyinizə dair sizə sorğu göndəriləcəkdir. Tətbiqin yenilənmiş versiyasını qəbul etmədiyiniz təqdirdə, müvafiq təlimatlara riayət etməklə, Tətbiqin və Maliyyə xidmətlərinin istifadəsinə xitam verməniz xahiş olunur. Tətbiqə dəyişiklik edildikdən sonra Tətbiqdən istifadə etdiyiniz təqdirdə, siz Tətbiqin yenilənmiş versiyasından istifadə etməyə və bu cür dəyişiklikləri qəbul etmək və onlara riayət etməklə bağlı öz üzərinizə öhdəlik götürmək üçün razılıq vermiş hesab edilirsiniz.

Biz, istənilən vaxt və ya vaxtaşırı, müvəqqəti və ya daimi olaraq tam və ya qismən Tətbiqin və ya Tətbiqin tərkib hissəsi olan digər istənilən məlumatın, xidmətin, məzmununun, məhsulun və ya funksiyanın; Tətbiqdən istifadə haqqının (ödənişin) modifikasiyası, dayandırılması və ləğv edilməsi; Tətbiqlə bağlı istənilən haqq və ödənişləri dəyişmək və/və ya ləğv etmək; və/və ya Tətbiq istifadəçilərinin bir qisminə (ayrı-seçkiliyə yol verməmək şərtilə) və ya hamısına əlavə imkanlar təklif etmək hüququnu özümüzdə saxlayırıq. Siz bununla razılaşırsınız ki, nə biz, nə də bizə hər hansı formada aidiyyəti olan şəxslərimiz, törəmə müəssisəmiz, vəzifəli şəxsimiz, direktorumuz, təsisçimiz, işçimiz, agentimiz, lisenziya verən şəxsimiz və ya nümayəndəmiz Tətbiqin və ya Tətbiq vasitəsilə təklif olunan istənilən xidmətin, tərkib hissənin, məhsulun və ya funksiyanın qismən və ya bütövlükdə modifikasiyasına, dayandırılmasına və ləğv edilməsinə görə sizin və ya istənilən üçüncü şəxsin qarşısında məsuliyyət daşımırıq.

## 3. Səlahiyyət

Şirkət hazırkı Müqavilənin şərtlərinə riayət edilməsi şərtilə şəxsi, qeyri-kommersiya məqsədilə (Məqsəd) istifadə edəcəyiniz Maliyyə xidmətlərini yalnız şəxsən istifadə etmək üçün sizə səlahiyyət verir.

Tətbiq sizə satılmır, Tətbiq üzərindən Maliyyə xidmətlərinin istifadəsi üçün sizə icazə verilir. Siz Tətbiqdən yalnız hazırkı Müqaviləyə müvafiq qaydada və Tətbiqdə qeyd olunan təlimatları yerinə yetirməklə istifadə edə bilərsiniz.

İcazənin hazırkı Müqavilədə göstərildiyi etibarlılıq müddəti Müqavilənin şərtlərinə dair razılıq bildirdiyiniz tarixdən etibarən başlayır və aşağıdakılardan hər hansı birinin ilk baş verdiyi tarixdə xitam verilir:

- Şirkət tərəfindən Müqavilənin ləğv edilməsi (bu hal səbəbi sizə açıqlanmadan baş verə bilər);
- Kartı emissiya edən Bankın, səlahiyyətli dövlət orqanının və ya məhkəmənin qərarı ilə;
- Təqdim olunan məlumatların həqiqi sahibi tərəfindən daxil edilmədiyi, saxtalaşdırıldığı müəyyən olunduqda;
- Müqaviləyə əlavə və dəyişikliklərin və ya Tətbiqin modifikasiyasının sizin tərəfinizdən qəbul edilməməsi;
- Kartın Məqsəddən kənar, həmçinin qanunvericiliklə yol verilməyən fəaliyyətlə bağlı istifadə edilməsi halları müəyyən olunduqda;
- Müqavilənin sizin tərəfinizdən ləğv edilməsi; yaxud
- Müqavilə şərtlərinin sizin tərəfinizdən yerinə yetirilməməsi.

## 4. Məhdudiyyətlər

Qüvvədə olan qanunvericiliklə aydın şəkildə yol verilən hallar istisna olmaqla, siz: (1) Tətbiqi modifikasiya etməyəcəyinizə, uyğunlaşdırmayacağınıza, təkmilləşdirməyəcəyinizə, dəyişdirməyəcəyinizə, tərcümə etməyəcəyinizə və ya onun əsasında törəmə məhsul yaratmayacağınıza; (2) Tətbiqi və ya onun istənilən tərkib hissəsini və ya elementini Tətbiq ilə nəzərdə tutulmayan digər Tətbiq və ya proqram təminatı, məlumat bazası və ya xidmətlərlə birgə istifadə etməyəcəyinizə və ya birləşdirməyəcəyinizə; (3) Tətbiqi istənilən üçüncü tərəfə sizin adınızdan istifadə etməklə təqdim etməyəcəyinizə, məlumatlarınızı paylamayacağınıza, satmayacağınıza və ya digər şəkildə ötürməyəcəyinizə; (4) Tətbiqdən xidmət bürosu kimi istifadə etməyəcəyinizə, yaxud Tətbiqi hər hansı bir üçüncü tərəfə istifadə və ya icarəyə verməyəcəyinizə; (5) Tətbiqin texnologiyasını açmayacağınıza, mənbə kodunu araşdırmağa çalışmayacağınıza, təhlil etməyəcəyinizə və ya digər şəkildə Tətbiqin mənbə kodunun və ya strukturunun əldə olunmasına, yaxud Tətbiqin şifrəsinin açılmasına cəhd göstərməyəcəyinizə; (6) Tətbiqin işinə istənilən şəkildə müdaxilə etməyəcəyinizə; (7) Tətbiqə girişi tənzimləyən və ya nəzarət edən hissədə istənilən elektron müdafiə tədbirlərindən boyun qaçırmayacağınıza və ya boyun qaçırmağa cəhd etməyəcəyinizə; (8) bilavasitə bizim tərəfimizdən öncədən verilmiş yazılı razılıq olmadan Tətbiqin aşkar edilməsi, indeksləşdirilməsi, axtarılması və məlumat toplanılması, yaxud istənilən şəkildə araşdırılması üçün və yaxud Tətbiqin naviqasiya strukturunun və ya təqdimatının təkrar yaradılması və ya bunlardan yan keçilməsi üçün hər hansı bir robotdan, spayderdən, sayt axtarış/aşkarlama Tətbiqlərindən, yaxud digər mexaniki və ya avtomatik qurğulardan istifadə etməyəcəyinizə; (10) Tətbiqi heç bir kommersiya məqsədləri üçün istifadə etməyəcəyinizə; yaxud (11) Tətbiqə çıxışla və ya onun istifadəsilə bağlı bütün qüvvədə olan qanunvericiliyin, qayda və təlimatların müddəalarını pozmayacağınıza və üçüncü tərəflərin də burada sadalan şərtləri pozmasına yol verməyəcəyinizə dair razılıq bildirirsiniz.

Siz Tətbiqə start verə biləcək, Tətbiq vasitəsilə start veriləcək və ya istənilən digər şəkildə Tətbiqlə inteqrasiya edilmiş heç bir proqram təminatı və ya digər funksional imkanlar tərtib etməyəcəyinizə, yaymayacağınıza və ya satmayacağınıza razılıq verirsiniz. Sizin Tətbiqlə bağlı və ya Tətbiqdə qarşınıza çıxan müəllif hüquqlarına və ya digər əqli mülkiyyət hüquqlarına dair istənilən bildirişi silməyə, dəyişməyə və ya gizlətməyə hüququnuz yoxdur.

## 5. Məxfilik

Bu Tətbiqdə bizim məlumatın qorunması və məxfilik təcrübəmizdən fərqli qaydaları özündə əks edən digər internet saytlara keçid linkləri ola bilər. Şirkət sözügedən bu cür internet saytlarının məzmununa və məxfilik siyasətinə görə məsuliyyət daşımır, belə ki, həmin saytlar tərəfimizdən idarə olunmur. Bu səbəbdən, qeyd edilən internet səhifələrin Məxfilik Siyasətini nəzərdən keçirməyinizi tövsiyə edirik.

Şirkət 998-IIIQ nömrəli 11 may 2011-ci il tarixli "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və digər müvafiq qanunvericilik aktlarına uyğun olaraq, sizə dair şəxsi, məxfi məlumatı toplaya, emal edə, istifadə edə və ya üçüncü tərəflərə ötürə bilər.

Şirkət həmçinin, Tətbiq üzərində istifadəçi istifadəsini asanlaşdırmaq, təkmilləşdirmək və ya daha da keyfiyyətli etmək üçün Tərbiqdən istifadəyə dair (fərdi məlumat hesab olunmayan) statistik məlumatları da toplaya, emal edə, istifadə edə və ya üçüncü tərəflərə ötürə bilər.

## 6. Mülkiyyət hüququ

Şirkət qeydiyyatdan keçib-keçməməsindən asılı olmayaraq, Tətbiqə dair qanunvericiliklə qorunan və bizə məxsus olan və ya bizim tərəfimizdən lisenziyalaşdırılan bütün maraqları, əqli mülkiyyət, sahiblik hüquqlarını və adları, həmçinin Tətbiqin bütün nüsxələrini, o cümlədən Tətbiqlə bağlı olan, lakin bunlarla məhdudlaşmayan, kompüter kodu, sənəd və sənədləşmə, müəllif hüquqları, patentlər, ticarət nişanları, kommersiya sirri, ticarət adları, digər adlar, simvollar, işarələr, ifadələr, konsepsiyalar, ixtiranın xarakteri, obrazın xarakteri, dialoq, ayarlar, süjet xətti, mövzular, animasiya, audiovizual effektlər, səs effektləri, musiqi işləri və iş metodları və sair kimi əqli mülkiyyət ("**Nişanlar**") üzərində sahiblik hüququnu özündə saxlayır. Tətbiq Azərbaycan Respublikasının müəllif hüquqlarına dair qanunvericiliklə, beynəlxalq müqavilələr, konvensiyalar və bütün dünyada tətbiq edilən digər qanunlar ilə qorunur.

Bilavasitə bizim tərəfimizdən verilmiş yazılı razılıq olmadan (istənilən səbəbdən bu cür razılığın verilməsindən imtina etmək hüququmuz vardır), istənilən Nişanı reklamda və ya kommersiya xarakterli istənilən yayımda istifadə etməyinizə yol verilmir.

## 7. Müqavilənin qüvvəyə minməsi

Müqavilə, İstifadəçinin onu qəbul etdiyi tarixdən qüvvəyə minir və elektron sənəd mübadiləsi yolu ilə rəsmiləşdirilmiş hesab olunur. Belə ki, İstifadəçi bu Müqaviləni imzalamaq və sorğunun şəxsən özü tərəfindən gəldiyini aydın şəkildə müəyyənləşdirmək üçün Tətbiq vasitəsi ilə təqdim olunan elektron təsdiq və/və ya identifikasiya vasitələrindən istifadə edir. Bundan sonra Müqavilə və Maliyyə xidmətlərinə ediləcək bütün əlavə və dəyişikliklərin Tətbiq vasitəsilə qəbul edilməsi İstifadəçinin imzasına bərabər tutulmaqla, özü tərəfindən imzalanmış hesab olunacaq.

## 8. Müqavilənin ləğvi

Müqavilənin 3-cu bəndində qeyd olunan xitam hallarının ardı olaraq, Şirkət öz mülahizəsinə uyğun olaraq, istənilən vaxt istənilən səbəbdən və ya səbəbsiz olaraq, əvvəlcədən bildiriş göndərməklə və ya göndərmədən hazırkı Müqaviləni dayandıra və ya ləğv edə bilər.

Sizin razılığınız və təsdiqinizlə Müqavilənin əhəmiyyətli dərəcədə pozulması hesab olunan hazırkı Müqavilənin hər hansı bir müddəasına riayət etmədiyiniz təqdirdə, Şirkət tərəfindən əvvəlcədən xəbərdarlıq edilmədən, Müqavilə dərhal ləğv ediləcəkdir. Tətbiq təminatının Cihazınızdan silməyiniz, hazırkı Müqavilənin ləğv edilməsi üçün əsas deyil.

Hazırkı Müqaviləni ləğv etdikdən sonra siz Tətbiqdən istənilən şəkildə istifadəni dayandırmalı və aldığınız və ya başqa şəkildə əldə etdiyiniz müşayiətedici sənədləşmə (və onun istənilən nüsxəsi) ilə birgə Tətbiqin bütün nüsxələrini Cihazınızdan silməlisiniz.

**9. Üçüncü tərəf (kənar) Tətbiq təminatı**

Hazırkı Tətbiq üçüncü tərəfin təmin etdiyi tətbiq təminatını ("**Üçüncü tərəf Tətbiq təminatı**") daxil etdiyi təqdirdə, Müqavilə ilə sizə hər hansı bir lisenziya, hüquq, mülkiyyət hüququ və ya digər maraqlar verilmir və ötürülmür. Tətbiq təminatından istifadə etməniz üçün sizdən sizinlə üçüncü tərəf arasında müqavilə bağlanmaqla Üçüncü tərəf Tətbiq təminatından yararlanmağı tələb edə bilər. Üçüncü tərəfin Tətbiq təminatına dair razılaşmanın şərtlərinə razı olub-olmamaq sizin ixtiyarınıza buraxılır. Şirkət Üçüncü tərəf Tətbiq təminatına dair heç bir bəyanat və ya zəmanət vermir. Siz bununla razılaşır və qəbul edirsiniz ki, Şirkət Üçüncü tərəf Tətbiq təminatı ilə bağlı heç bir birbaşa və ya dolayı şikayət, itki və ya ziyana görə məsuliyyət daşımır.

**10. Karta dair şərtlər**

Hazırki Müqavilənin şərtlərini qəbul etməklə "PAŞA Bank" ASC-nin emissiya etdiyi istifadəçisi eyniləşdirilmiş yüklənə bilən əvvəlcədən ödənilmiş kart (Kart) sifariş verdiyinizi təsdiq edirsiz. Bu kart üzrə bir təqvim ili ərzində aparılan məxaric əməliyyatlarının həcmi bu Kart üzrə qanunvericiliklə nəzərdə tutulmuş məbləğdən (hal-hazırda bu məbləğ 15000 (on beş min) manat təşkil edir, qanunvericiliyə uyğun olaraq artıb-azala bilər) və ya onun ekvivalentində xarici valyutadan çox ola bilməz.

Kartlar mövcud funksional və Sizin seçiminizdən asılı olaraq fiziki və ya rəqəmsal formada emissiya edilə bilər. Fiziki formada emissiya edilmiş Kart ayarları bölümündə qeyd olunan müddət ərzində Sizə təqdim ediləcək. Rəqəmsal formada emissiya edilmiş Kart qısa müddət ərzində tətbiqdə əks olunur.

Kart Azərbaycan Respublikasının nağdsız hesablaşmalar haqqında qanunvericiliyinin tələblərinə zidd olan və/və ya sahibkarlıq məqsədləri üçün istifadə edilə bilməz.

Kart üzrə texniki overdraft yəni hesabın məzənnə fərqi və ya digər səbəblərdən mənfi balansa keçməsi halı baş verərsə, bu zaman, Kart üzrə cərimə faizləri tətbiq oluna bilər. Cərimə faizləri və tətbiq olunma qaydası Şirkətin internet səhifəsində Kart məhsuluna dair məlumatlar bölümündə qeyd olunur.

Kart üzrə hər-hansı məbləğ İstifadəçinin hesabına səhvən köçürüldükdə, o bu barədə dərhal Şirkəti məlumatlandırmalı və həmin vəsaitdən istifadə etməməlidir.

Kartın istifadə şərtləri, tariflər barədə məlumatlar Şirkətin internet səhifəsində Kart məhsuluna dair məlumatlar bölümündə qeyd olunur və Kartı sifariş edən zaman İstifadəçi bu şərtlərlə tanış olub onları qəbul etmiş olur.

İstifadəçi, Maliyyə xidmətləri üzrə bütün şərt və məlumatları Şirkətin internet səhifəsində Kart məhsuluna dair məlumatlar bölümündə əldə edir. İstifadəçi, Kart üzrə xidmətlərdən istifadə edərkən qüvvədə olan şərtlər və haqlar barədə məlumatı qeyd olunan səhifədən əldə edir.

İstifadəçi, mövcud olan hər bir Maliyyə xidməti üzrə ayrıca Müqavilə imzalamadan, hər birinin şərtlərini Tətbiqin müvafiq bölümündən əldə edib, qəbul edərək razılıq verərək istifadə edir.

İstifadəçi, Kartı ilə bağlı xidmətin göstərilməsi üçün təqdim edilən hər-hansı sənəd və məlumatlarda baş vermiş dəyişikliklər barədə 3 (üç) iş günü ərzində müvafiq təsdiqedici sənədləri qoşmaqla Azercellə təqdim edir.

## 11. Kreditə dair şərtlər

Şirkət, İstifadəçiyə, kredit xidmətini təklif edə bilər. Kredit məhsulunun şərtləri xidmət İstifadəçiyə təqdim olunanda ayrıca imzalanacaq və bu Müqaviləyə əlavə hesab olunacaq şərtlər aiddir. Bu bəndin məqsədləri üçün imzalanma dedikdə, elektron imza, digər eyniləşdirmə metod və vasitələri, elektron və ya mobil (OTP) təsdiq və ya bununla məhdudlaşmayan hər hansı təsdiq vəsitəsi nəzərdə tutulur.

## 12. İstifadəçi təsdiqi

Siz qəbul edir və razılaşırsınız ki, Tətbiqə çıxış və ondan istifadə üçün bütün telekommunikasiya vasitələrinin, geniş-zolaqlı çıxış və kompüter texnikasının, avadanlıqların və xidmətlərin alınmasına və saxlanılmasına, həmçinin bununla bağlı bütün ödənişlərin həyata keçirilməsinə görə məsuliyyət daşıyırsınız.

Siz qəbul edir və təsdiq edirsiniz ki, Tətbiq əsasında şəxsiyyətiniz eyniləşdirildikdən sonra sifariş edəcəyiniz xidmətlər yalnız sizin tərəfinizdən sifariş olunmuş hesab ediləcək.

Siz qəbul edir və təsdiq edirsiniz ki, kart üzrə təqdim olunan xidmət tarifləri 1 (bir) gün əvvəlcədən məlumatlandırmaq şərti ilə birtərəfli qaydada dəyişdirilə bilər.

Siz qəbul edir və təsdiq edirsiniz ki, Sizə bu tətbiq üzərindən göstərilən xidmətlərin mahiyyətindən irəli gələrək Sizə aid kart məlumatları, kart üzrə aparılan əməliyyatlar barədə məlumatlar Bank tərəfindən Bizə təqdim ediləcək. Siz qəbul edir və təsdiq edirsiniz ki, Maliyyə xidmətlərindən istifadə üçün Tətbiqdə və/və ya Şirkətin internet səhifəsində qeyd olunan şərt və tariflərlə tanış olub onları qəbul edirsiniz.

Siz qəbul edir və təsdiq edirsiz ki, heç bir halda Tətbiqə daxil olmaq üçün istifadəçi şifrəsini digər şəxslərə verməyəcəksiz, onlara bu şifrəni əldə etmək və ya digər üsulla Tətbiqə çıxışlarına şərait yaratmayacaqsız.

Siz qəbul edir və təsdiq edirsiniz ki, Tətbiqdən istifadə etməyə başlayarkən özünüzə aid fərdi məlumatların müxtəlif məlumat bazalarından (Elektron Hökümət Portalı, SİMA və digərləri) və digər mənbələrdən toplanılmasına, saxlanmasına, işlənilməsinə, verilməsinə və transsərhəd ötürülməsinə razılıq verirsiz.

Siz qəbul edir və təsdiq edirsiniz ki, Tətbiqdən istifadə edərək elektron pul kisəsinin (Kart) açılması və/və ya digər Maliyyə xidmətlərindən istifadə üçün müraciəti etdiyiniz zaman Şirkət tərəfindən aşağıdakıların hər dəfə əldə edilməsinə razılıq verirsiniz:

- SİMA Portalından şəxsiyyət vəsiqəsi (ad, soyad, ata adı və FİN) və iş yeri barədə məlumatlarının sorğulanaraq alınmasına, toplanmasına, işlənməsinə və zəruri olduqda Kartı emissiya edən banka ötürülməsinə;

Siz qəbul edir və təsdiq edirsiniz ki, Tətbiqdən istifadə edərək kredit üçün müraciəti etdiyiniz zaman Şirkət və/və ya bank tərəfindən aşağıdakıların hər dəfə əldə edilməsinə razılıq verirsiniz:

- “Azərbaycan Kredit Bürosu” MMC-dən (bundan sonra “Kredit Bürosu”) kredit tarixçəniz haqqında məlumatların alınmasına;
- Haqqınızda toplanan məlumatların Kredit Bürosuna təqdim edilməsinə;
- Müvafiq məlumatlarınızın Kredit Bürosu tərəfindən transsərhəd ötürülməsinə;
- Məlumatların “Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununun 11.3-cü maddəsində

nəzərdə tutulmuş hallarda başqa kredit bürosuna ötürülməsinə;

- Məlumatın saxlanma müddəti başa çatdıqdan və ya kredit tarixçəsi subyektinin ölümündən sonra Kredit Bürosu tərəfindən arxivləşdirilməsinə;
- Ödəmə qabiliyyətinizin və borc öhdəlikləriniz üzrə icra intizamınızın Kredit Bürosu tərəfindən qiymətləndirilməsi və fərdi kredit reytinqlərinin verilməsinə.

Siz qəbul edir və təsdiq edirsiniz ki, Tətbiq vasitəsilə ilə hər hansı xidmət üçün müraciət etdikdə, Şirkətin və/və ya xidməti icra edən bankın müəyyən etdiyi xidmət haqqı sizin qeyd etdiyiniz (edəcəyiniz) bank hesabından akseptsiz qaydada tutulacaq. Tutulmuş xidmət haqları heç bir halda geri qaytarılmır. Müvafiq hesabda yetərli vəsait olmadığı təqdirdə isə xidmət göstərilməsindən imtina olunacaq.

Siz qəbul edir və təsdiq edirsiniz ki, Tətbiq vasitəsilə kredit üçün müraciət edildikdə, onun şərtləri ilə tələb olunan qaydada ayrıca tanış olacaq və şərtləri nəzərdə tutulan eyniləşdirmə vasitəsindən istifadə etməklə (OTP təsdiq, elektron imza və s.) qəbul edəcəksiniz, əks halda müraciətiniz ləğv olunacaq.

Siz qəbul edir və təsdiq edirsiniz ki, müqavilələrin, ərizələrin, kartların, digər sərt məlumat daşıyıcıların və ya alətlərin poçt və/və ya kuryer vasitəsilə sizə çatıdırlmasına razılıq verirsiniz.

Siz qəbul edir və təsdiq edirsiniz ki, Şirkət tərəfindən hər hansı məhdudiyyətlər tətbiq edilmədiyi halda siz hazırkı Tətbiqin funksionalından və imkanlarından tam şəkildə istifadə edə bilərsiniz.

Tətbiqə çıxışı seçdikdə, siz bunu öz təşəbbüsünüz və öz riskiniz əsasında edirsiniz və siz bu zaman bütün qüvvədə olan qanunlara, qayda və təlimatlara riayət etməlisiniz.

Siz qəbul edir və təsdiq edirsiniz ki, hazırki Müqavilə (ona gələcəkdə edilən bütün əlavə və dəyişiklikləri ilə birlikdə) çərçivəsində Sizə Azercell tərəfindən qeyd olunanlardan hər hansı birinin, və ya bir neçəsinin edilməsi yazılı xəbərdarlandıq/bildiriş hesab olunur: www.azercell.com səhifəsində yerləşdirilmiş məlumat, Tətbiq üzərindən bildiriş, mobil nömrəyə Pop-up bildiriş, sms göndərilməsi, zəng edilməsi, elektron poçt ünvanı (e-mail) və ya poçtla göndərilən məktub.

## 13. Sui-istifadə

Maliyyə xidmətləri üzrə təqdim olunan əməliyyatlar, bonuslar, hədiyyələr, imkanlar və bunlarla məhdudlaşmadan hər hansı imtiyaz və üstünlüklərdən (bundan sonra Bonus) istifadə edən və faydalanan İstifadəçi heç bir halda sui-istifadəyə yol vermir, vergidən yayınmır, dələduzluq və ya hər hansı cinayətkar məqsədlə istifadə etmir. Şirkət, özünün nəzarət mexanizmi ilə istənilən sui-istifadə halını aşkarladığı zaman Maliyyə xidmətlərinin göstərilməsini tamamilə və ya qismən bloklaşdıra, tətbiq olunmuş hər-hansı Bonusu ləğv edə və ya azalda, və ya Müqaviləyə xitam verə bilər.

## 14. Müqaviləyə əlavə və dəyişikliklərin edilməsi

Şirkət öz mülahizəsinə uyğun olaraq, istənilən vaxt hazırkı Müqaviləyə dəyişikliklər edə və ya onu birtərəfli qaydada yeniləyə bilər.

Azercell Müqaviləyə əlavə və/və ya dəyişikliklər haqqında yazılı qaydada məlumat verir. İstifadəçi Müqavilə ilə müəyyən olunan əlavə və/və ya dəyişikliklər ilə razı olmadıqda, qeyd oluna xidmətin göstərilməsinə Azercell qarşısında mövcud öhdəliklərini (olduğu təqdirdə) icra etməklə xitam verə bilər.

Müqavilənin əlavə və/və ya dəyişiklikləri və onun redaksiyaları Azercellin www.azercell.com səhifəsində yerləşdirilir və İstifadəçi Müqaviləyə əlavə və/və ya dəyişikliklər ilə tanış olmağı öz öhdəsinə götürür.İstifadəçi istənilən zaman Müqavilənin bütün mövcud və qüvvədə olmuş versiyaları ilə Azercellin www.azercell.com səhifəsində tanış ola bilər.

**15. Müqavilə müddəalarının müstəqilliyi**

Hazırkı Müqavilənin istənilən müddəası qanuni qüvvədən düşmüş və ya etibarsız sayılarsa, sözügedən müddəa qüvvədə olan qanunvericiliyə uyğun olaraq dəyişdirilən müddəanın məqsədlərinə maksimal dərəcədə yaxın olan müddəa ilə əvəz və şərh ediləcəkdir, Müqavilənin digər müddəaları isə tam hüquqi qüvvəsində qalmaqda davam edəcəkdir.

**16. Hüquqlardan imtina edilməməsi**

Şirkət tərəfindən Müqavilədə əks olunan istənilən hüququn həyata keçirilməməsi və ya müdafiə edilməməsi Şirkətin həmin hüquqdan imtina etməsi anlamına gəlmir.

**17. Müqavilənin bütövlüyü**

Müqavilə siz və Şirkət arasında Müqavilənin predmetinə dair bağlanmış bütöv razılaşmanı ifadə edir və bundan əvvəl istər yazılı, istərsə də şifahi formada ifadə edilmiş istənilən və bütün razılaşmaları, bildirişləri, bəyanatları və öhdəlikləri əvəz edir.

**18. Agentlik yaratmamaq öhdəliyi**

Tətbiqin istifadə edilməsi ilə sizin, Şirkətin və ya istənilən Üçüncü Tərəf Tətbiq Təminatı provayderinin arasında heç bir agentliyin, tərəfdaşlığın, birgə müəssisənin, işçi-işəgötürən və ya françayz verən-françayz alan münasibətlərinin nəzərdə tutulmasına, yaxud yaradılmasına yol verilmir.

**19. Hüquqların ötürülməsi**

Şirkət hüquqlarını istənilən vaxt istənilən üçüncü tərəfə sizə öncədən bildiriş göndərmədən ötürə bilər. Lakin sizin hazırkı Müqaviləni yaxud bu Müqavilə ilə bağlı hər hansı bir hüquq və öhdəliklərinizi bizim öncədən verilmiş yazılı razılığımız olmadan ötürməyə hüququnuz yoxdur və hazırkı müddəanın şərtlərini pozaraq istənilən bu cür ötürmə cəhdi etibarsız və hüquqi qüvvəsi olmayan hesab edilir.

**20. Tənzimləyən qanunvericilik və yurisdiksiya**

Hazırkı Müqavilə Beynəlxalq Millətlər Təşkilatının malların beynəlxalq alqı-satqısına dair Konvensiyası və kolliziya normaları ilə bağlı prinsiplər istisna olmaqla, müstəsna olaraq, Azərbaycan Respublikasının ona dair tətbiq olunan qanunvericiliyi ilə tənzimlənir. Bununla siz Azərbaycan Respublikası məhkəmələrinin qeyri-müstəsna yurisdiksiyasına tabe olursunuz. Hazırkı Müqavilənin istənilən müddəası etibarsız, qanunsuz və ya istənilən şəkildə hüquqi qüvvədən düşmüş hesab edildiyi təqdirdə, sözügedən müddəa hazırkı Müqavilədən ayrılaraq onun qalan bütün müddəalarının etibarlılığına və hüquqi qüvvədə qalmasına təsir etməyəcəkdir.

Biz bu Tətbiqi Azərbaycan Respublikasında idarə edirik və nəzarətdə saxlayırıq və Şirkəti Azərbaycan Respublikasından başqa digər dövlətin, ölkənin, ərazinin qanunlarına və ya yurisdiksiyasına tabe etmək niyyətimiz yoxdur. Şirkət Azərbaycan Respublikasından fərqli olan istənilən ölkədə Tətbiqin istifadəsinin uyğun və ya əlçatan olacağına dair heç bir bəyanat və ya zəmanət vermir.

## 21. Əlaqə məlumatları

Tətbiqə və ya hazırkı Müqaviləyə dair hər hansı bir sualınızın yaranacağı, şərhə ehtiyacınız olacağı, yaxud şikayətiniz olacağı təqdirdə, bizimlə fintech@azercell.com e-mail ünvanı və/və  ya *3443 telefon nömrəsi vasitəsilə əlaqə saxlaya bilərsiniz.